


## İlham Məmmədovun Yevlax seçiciləri ilə görüşləri davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) 48 saylı Yevlax seçki dairəsindən deputatlığa namizədi İlham Məmmədov parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun təhsil işçiləri və ziyalıları ilə görüşüb.



Tədbiri giriş sözü ilə açan seçki qərargahının sədri Vaqif Əliyev deputatlığa namizəd İlham Məmmədovun ötən çağırışlardakı fəaliyyəti haqqında ətraflı məlumat verib.



Deputatlığa namizəd İlham Məmmədov Azərbaycanın beynəlxalq arenada yeri və nüfuzu, YAP-ın Sədri, Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, həyata keçirilən infrastruktur layihələri barədə geniş danışıb. Qeyd edib ki, ölkə başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, təhsil dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. İlham Məmmədov qeyd edib ki, bu gün Birinci vitse-prezident Mehriban Əliyevanın təhsil sahəsində gördüyü işlər öz bəhrəsini verməkdədir. “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində inşa edilən və müasir avadanlıqla təchiz olunan məktəblər Heydər Əliyev Fondunun reallaşdırdığı işlərin yalnız bir hissəsidir. Sonra çıxış edənlərdən Əminə Yusifqızı, Yeganə Məmmədova, Kəmalə Ələkbərova və başqaları İlham Məmmədovun hər zaman rayon sakinlərinin müraciətlərinə diqqətlə yanaşaraq problemlərinin həllinə çalışmasından danışıblar.



Seçicilər parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

## Seçicilər yekdilliklə Sədaqət Vəliyevaya səs verəcəklər

9 fevral 2020-ci il tarixində keçiriləcək Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Vəliyeva Sədaqət Süleyman qızının təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşləri davam edir. Budəfəki görüş B.Nuriyev 40, 42, 46, 48, 48a, 52 ünvanlarında yaşayan seçicilərlə olub.






Görüşdə deputatlığa namizəd Sədaqət Vəliyevanın ötən 5 il ərzindəki fəaliyyəti barədə hesabat verilib və onun növbəti 5 illik üçün proqram və platforması barədə seçicilərə məlumat çatdırılıb.

Deputatlığa namizəd YAP Nizami rayon təşkilatının sədri Sədaqət Vəliyeva seçicilərə öz təşəkkürünü bildirərək qeyd edib ki, ötən 5 il ərzində ona səs vermiş seçicilərin etimadını doğrultmağa çalışıb.

Seçicilər öz növbələrində yekdil olaraq bildiriblər ki, YAP-ın Nizami rayonundan namizədliyi irəli sürülmüş Sədaqət Vəliyeva hər zaman insanlara xüsusi diqqət göstərib. Seçicilər eyni zamanda, ümumi problemlərlə bağlı fikirlərini bildirib və onların aradan qaldırılması na köməklik edilməsi üçün müraciət ediblər.

Sakinlər tərəfindən qaldırılmış məsələlərin vaxtında həll edilməsi üçün müvafiq orqanlara müraciət edəcəyini söyləyən Sədaqət Vəliyeva seçiciləri aktiv olmağa və fevralın 9-da məntəqələrə gedərək ən layiqli namizədə səs verməyə çağırıb.






Seçicilər bir daha Sədaqət Vəliyevanın ötən illərdəki fəaliyyətindən razılıqlarını bildirib və qəti şəkildə deyiblər ki, daha güclü Azərbaycan naminə YAP-ın namizədini Vəliyeva Sədaqət Süleyman qızına yenidən səs verəcəklər.

## Aytən Hüseynova Səbail rayonunda qadın seçicilərlə görüşüb

**VI çağırış Milli Məclisə seçkilərdə 29 saylı Səbail seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Aytən Hüseynova təbliğat-təşviqat kampaniyası çərçivəsində qadın seçicilərlə görüşüb.**



Çıxış edən YAP Mərkəzi Seçki Qərargahı Səbail rayon şöbəsinin və rayon partiya təşkilatının sədri Şəmsəddin Hacıyev qadınların respublikamızın ictimai-siyasi həyatında, cəmiyyətimizin yeni keyfiyyət mərhələsindəki inkişafında, eləcə də YAP-ın sıralarında rolundan geniş bəhs edərək ölkəmizdə dövlət qadın siyasətinin uğurla həyata keçirilməsi, qadınların respublikamızda, həmçinin Səbail rayonunda gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirakı və idarəetmə orqanlarında, seçki proseslərindəki təmsilçiliyi haqqında danışıb. Vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın humanizm, xeyriyyəçilik kimi bəşəri prinsiplərə söykənən və ən həssas, xüsusi diqqət tələb edən sahələrdəki çoxşaxəli fəaliyyəti bütün dünyada Azərbaycan qadınının müsbət obrazını formalaşdırıb.

Sonra YAP-ın deputatlığa namizədi Aytən Hüseynovanın partiya sıralarındakı fəaliyyəti və ictimai-siyasi təcrübəsi haqqında görüş iştirakçılarına məlumat verilib.

Deputatlığa namizəd Aytən Hüseynova çıxış edərək seçki platforması haqqında məlumat verib.



Sonra qadın seçiciləri maraqlandıran suallar cavablandırılıb və onların təklifləri dinlənilib.

Çıxış edən YAP Səbail rayon Qadınlar Şurasının sədri Təranə Kərimova, YAP Səbail rayon təşkilatı İdarə Heyətinin üzvü Zemfira Məmmədova, rayon təşkilatı Qadınlar Şurasının üzvü Tinatin Əliyeva, fəal qadınlardan Pərvanə Əzimova, Könül Əfəndiyeva, Xədicə Həsənova və Aytəkin Hüseynbəyli Aytən Hüseynovaya qarşıdan gələn parlament seçkilərində uğurlar arzulayıblar.

Yüksək seçici əhval-ruhiyyəsi ilə keçən görüşdə qadınlar səsvermə günü məntəqələrə gələrək Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyəcəklərini bildiriblər.

Hazırladı: **Zahid Rza, *“İki sahil”***